# Qarabağı düşməndən geri alan onu həm də tikib quracaqdır

(Əvvəli 1-ci səhifədə).

İkincisi, heç nəyi olmayan millət dəyərlərin qədrini bilməz!

Bu millət oğru millətdir!

Təkcə torpağımızı yox, musiqimizi, xalçalarımızı, mətbəximizi, alban kilsələrini də oğurlayır.

Ermənilər yaxşı bilirdilər ki, Ağdamda qızıl diş saldırmaq dəbdə olub. Hər kəsin yaşından asılı olmayaraq, ağzında bir neçə qızıl dişi olub.

Odur ki, qəbirləri söküb, meyitlərin qızıl dişlərini oğurlayıblar!

İnsanın, torpağın, dini abidələrin, keçmişin qədrini bilməyən millətin gələcəyi ola bilməz!

***Dönüşün başlanğıcı***

Bura qədər danışdıqlarım hamısı xatirimdəki Ağdam idi!

Bir zamanlar qaynayıb daşan, yaraşıqlı evləri, abad küçələri, gözəl park və bağları, ziyalı və əməksevər insanları, məlahətli səs sahibi olan xanəndə və müğənniləri, düşmənə ağır zərbələr endirən igid oğulları ilə fəxr edən Ağdam!

Yiyə vay dərdindən işğala məruz qaldı!

Qorxaq, maymaq, səriştəsiz, şəxsi maraqları xalqın marağından üstün tutan bacarıqsız ölkə başçıları Ağdamı da köməksiz və arxasız qoydular!

Nə ordu yarada bildilər, nə torpaqların müdafiəsini təşkil etdilər, nə də düzgün siyasət yeritdilər!

Onların bəd əməllərinin ağrıacısını bütün xalq, o cümlədən müharibənin ilk günlərindən düşmənlə qabaq-qarşıya döyüşən Ağdam çəkdi.

Dünyanın ən varlı şəhərlərindən biri sayılan Ağdam!..

Ağdamın etdiklərinin əvəzini çıxmaq üçün düşmən onu viran qoydu!

Bu gün isə dövlətin rəhbəri və sahibi öz yerindədir!

İlham Əliyev ordu da qurdu, müharibə də apardı, 44 gündə düşməni yerlə yeksan edərək Ağdam qarışıq torpaqları azad etdi!

Ali Baş Komandan Vətən müharibəsindəki zəfərlə iki əsirlik münaqişəyə birdəfəlik son qoydu, beş əsrlik tariximizdə ilk dəfə olaraq itirilən torpaqları geri qaytardı!

Bütün Qarabağı, o cümlədən Şuşanı murdar ləpirlilərdən təmizlədi.

Azərbaycan xalqına verdiyi vədini şərəflə yerinə yetirdi!

İndi isə geniş və vüsətli quruculuq işlərinə başlanılıb.

Möhtərəm Prezidentimiz Qarabağı yenidən dirçəldəcəyinə, cənnətə çevirəcəyinə söz verib!

Vətənin, torpağın qədrini onun əsl sahibi bilər!

Əminik ki, torpağı düşməndən qaytarıb alan onu həm də yenidən tikib quracaqdır!

Qarabağ Azərbaycandır!

**«Azərbaycan»**

# Şəhid ailələrinə və müharibə əlillərinə Novruz sovqatı təqdim edilmişdir

Xalqımız humanist bir xalqdır. Humansitlik isə insanların bir-birinə daha yaxın olması, insanlığın bir növ təzahürüdür. Humanistlik xüsusiyyəti olmasa insanların vicdani hissləri ola bilməz. İnsanlar əgər bir-birinə qayğı göstərməsə orada vətənpərvərlik, milli-mənəvi dəyərlər təzahür edə bilməz. Xeyirxahlıq da xalqımıza xas ən müsbət keyfiyyətdir. Xeyirxahlıq ta əcdadlarımızdan bizlərə miras qalan ən gözəl xüsusiyyətdir. Dini baxımdan da humansitlik və xeyirxahlıq məhz insani xüsusiyyətlərdir. Xalqımıza xas olan bu xüsusiyyətlər ölkəmizdə aparılan dövlət siyasətində başlıca meyardır. Elə 44 günlük müharibədə qazanılan zəfər qələbəsi də məhz bu zəminlərin bəhrəsidir. Xalqını, torpağını sevən igid oğullar Ali Baş Komandanın ətrafında sıx birləşərək işğal altında olan, erməni vandallığının xarabazara çevirdiyi torpaqlarımız və vətən uğrunda canlarını fəda etmiş şəhidlərin qisasını almaq üçün mübarizəyə qalxmışlar. Məhz Ordumuzun gücü igid vətənpərvər oğulların ali məqsədi, döyüş əzminin yüksək olması, "dəmir yumruğun" eyni "nöqtəyə" vurulması idi.



Bu gün Vətəni Vətən edən, onun qayasında mamır olub bitən oğulların gözlərini qırpmadan canlarını belə qurban verməsi, şəhadətliyə qovuşması, bədən üzvlərinin ayrı-ayrı hissələrinin itirməsinə rəğmən hər an Vətən uğrunda bütün maneələrə, müdafiəyə, vuruşlara hazır olan oğulların var olması bu vətənin yenilməzliyinin bariz nümunəsidir. Belə bir deyim var, əsgər döyüşlərdə deyil , unudularkən ölür. Ancaq bizim qəhramanlarımız unudulmur, Vətən fədailəri hər zaman yaddaşlarda, qayğılarda, humanistliklərdədir.

Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətdə şəhid ailələri və Qarabağ müharibəsi əlilləri, bu kateqoriyadan olan digər şəxslər hərtərfli dövlət qayğısı ilə əhatə olunublar. Şəhid ailələri və müharibə əlilləri mənzillərlə təmin olunurlar, həmçinin qazilər yüksək texnologiyalı protezlərlə təmin olunurlar. Reabilitasiya xidmətləri göstərilən şəxslərin sayı 30 min nəfərə çatacaq. "Yaşat" fondu qazilərimizə qayğı və dəstək təşəbbüsləri göstərirlər.

Azərbaycan dövləti torpaqlarımızın işğaldan azad olunması uğrunda apardığımız haqq mübarizəsinin iştirakçılarının fiziki, psixoloji, maddi vəziyyətinin yaxşılaşdırılması istiqamətində bütün zəruri işləri görür.

Artıq qədim və milli bayramımız Novruzun astanasındayıq. Novruz bayramı özü elə humanistliyin, insanlığın ali məqsədlərini ifadə edən bir mərasimdir.

Dövlətimiz hər bir Azərbaycan vətəndaşının sosial məsələlərinin həllinə xüsusi diqqətlə yanaşır və bu baxımdan Respublika Prezidenti tərəfindən çox mühüm layihələr həyata keçirilir. Bu istiqamətdə icra olunan işlərin nəticəsini daha çox sosial cəhətdən xüsusi qayğıya ehtiyacı olanlar öz həyatlarında hiss edirlər.

Prezident İlham Əliyev və ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəhid ailələrinə, Qarabağ müharibəsi əlilləri, aztəminatlı ailələr və bu kateqoriyadan olan digər şəxslərə sosial təminat sahəsində genişmiqyaslı və düzgün siyasət aparılır, onlar dövlət tərəfindən qayğı ilə, diqqətlə əhatə olunurlar. Dünyada ikinci belə bir ölkə yoxdur ki, bu sahəyə belə diqqət ayırsın.



Hazırda ölkəmizin sosial-iqtisadi imkanları günü-gündən yaxşılaşır. Düzgün iqtisadi siyasət aparmaqla əlavə gəlirlər əldə edilir. Şübhəsiz bu gəlirlər ilk növbədə əhalinin sosial problemlərinin həllinə yönəldilmişdir.

Qəbələ rayonunda idarə-təşkilatlar tərəfindən əlamətdar tarixi günlərdə və bayramlarda şəhid ailələri, müharibə əlilləri və az təminatlı ailələrlə görüşlərin keçirilməsi, onların problem və qayğılarının öyrənilməsi və müvafiq dəstəyin verilməsi artıq ənənə halını almışdır.



Qarabağ şəhidləri və qazileri başımızın tacıdır. Bayram günlərində onları ayrıca təbrik etmək, daim onların qayğısına qalmaq hamının borcudur.

Bu günlərdə Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyası və Qəbələ Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Qarabağ torpaqlarının azad edilməsi uğrunda gedən döyüşlərdə şəhid olmuş rayon sakinlərinin ailələri, Qarabağ müharibəsi əlləri və az təminatlı ailələrlə görüş keçirilmişdir. Nümayəndələr çıxış edərək respublikamızın ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarından keçən vətən övladlarının ailələrinin, qazilərin və bu kateqoriyadan olan digər şəxslərin sosial müdafiəsi ilə bağlı dövlət siyasətindən danışıb. Prezidenti İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın əhalinin həssas təbəqələrinə diqqət və qayğısı, onların problemlərinin həlli istiqamətində görülən işlər qeyd olunub. Bu siyasətin xalqımız tərəfindən yüksək qiymətləndirildiyi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə əldə olunan nailiyyətlərdən, aparılan köklü islahatlardan ətraflı bəhs edilib.

Azərbaycan Respublikası Həmkarlar İttifaqı Konfederasiyası tərəfindən 50, həmçinin Qəbələ Rayon İcra Hakimiyyətinin təşəbbüsü ilə 50 qutu bayram sovqatı şəhid ailələrinə, müharibə əlillərinə və aztəminatlı ailələrə verilmişdir.

Tədbirdə ölkə Prezidentinin şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin mənzil-məişət şəraitinin, sosial vəziyyətinin daha da yaxşılaşdırılması ilə bağlı verdiyi göstərişlərin, həyata keçirilən önəmli işlərin dövlət başçısının diqqət və qayğısının bariz nümunəsi olduğunu vurğulayan təşkilat nümayəndələri şəhid ailələrini, müharibə əlilləri və az təminatlı ailəri Novruz bayramı münasibətilə təbrik etmiş və onlara Novruz sovqatı təqdim edilmişdir.

Sonda şəhid ailələri və müharibə əlilləri onlara göstərilən dövlət qayğısına görə ölkə Prezidentinə və rayon icra hakimiyyətinə öz təşəkkürlərini bildirmişlər.

**Səfa ASLANOV,**
**«Qəbələ»**